**UOT 792.09**

**Günel Zaur**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**magistrant**
**E-mail: gunel95gz@icloud.com**

# AZƏRBAYCAN DÖVLƏT GƏNC TAMAŞAÇILAR TEATRININ SƏNHNƏQRAFİYASININ BƏDİİ CƏHƏTLƏRİ

**Xülasə:** Məqalədə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı bədii cəhətdən təsvir və təhlil edilmişdir. Məqalədə əsas məsələ Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının səhnəqrafiya ənənələrinin tarixini araşdırmaq, 1930-cu ildən bu günümüzə qədər teatrın formalaşdırdığı rəssamlıq sənətinin təşəkkülünü müəyyən etməkdir. Bütövlükdə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının səhnəqrafiya sənətinə aid əsas problemlərin üzə çıxarılmasıdır.

**Açar sözlər:** teatr, səhnəqrafiya,  rəng, işıq, kompozisiya, rəssam

Teatr elə bir sahədir ki, müqəddəs olan gözəllik, həqiqət, məhəbbət, vətənsevərlik, dil, qəhrəmanlıq kimi bəşəri tanrılara burada tapınır, burada onlara səcdə qılırıq. Bilmədiyimiz mənalar, mətləblər, anlayışlar, həqiqətlər axtarışlarının aynasında dərk olunur. Teatr haqqında, bu sənətin sehri barədə gözəl və mənalı, zərif duyğularla çuğlayan və elmli sözlər deyilib, deyilir və deyiləcək. Teatr sənəti, onun məna tutumu, təlqin qüdrəti söylənən təriflərin hamısına layiqdir. Dahilərin hikmətli sözlərinə söykənc olanda, görüb-götürdüklərimizi xəlbirdən keçirəndə görürsən ki, qonağı olduğumuz, bir ucu gəlimli, bir ucu ölümlü dünyamız da elə bir növ teatrdır. Hərənin bu dünya-teatrda öz gəlişi və gedişi, öz rolu və sözü var. Bir az da dərindən düşünəndə görürsən ki, doğrudan da teatr bir məktəbdir. Elə məktəb ki, çoxlarımız ilkin mənəvi və psixoloji dərslərimizi məhz burada almışıq və deməli, onu danmaq ədalətsizlik, haqsızlıq olar. Teatr bu gün də, hər zaman olduğu kimi, xalqın mənəviyyatını tərənnüm və təcəssüm edən sahələrdəndir. Tamaşa tərtibatının baş iştirakçısı, yaradıcısı kimi, teatr rəssamı çıxış edir. Məhz buna görə ölkəmizin müstəqillik dövrünə qədəm qoyduğu dövrdə teatr tamaşalarının bədii tərtibatı problemi milli səhnə sənətinin inkişafı baxımından çox aktualdır. Bu mənada Azərbaycan teatrının 151 illik tarixində böyük xidmətləri olan Gənc Tamaşaçılar Teatrında tamaşaya qoyulan əsərlərin bədii tərtibatının geniş tədqiqat obyektinə çevrilməsi mövzunun aktuallığını şərtləndirir. Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında səhnəqrafiya ənənələri bu gün də davam edir. XIX əsrin sonlarından başlayaraq müasir dövrə qədər Azərbaycan teatr-dekorasiya sənəti böyük tarixi inkişaf yolu keçmişdir və müxtəlif dövrlərdə həm teatr, həm də teatr-dekorasiya sənəti tarixinə dair bir çox tədqiqatçılar – teatrşünas və sənətşünaslar müraciət edərək monoqrafiyalar dərc etdirmiş, araşdırmalar apararaq bu sahədə müəyyən elmi nailiyyətlər, nəticələr əldə etmişlər. Teatr tarixini əks etdirən həmin monoqrafiyalardan Mehdi Məmmədovun "Teatrlar, aktyorlar, tamaşalar", İlham Rəhimlinin "Azərbaycan Milli Dram teatrı", "Səhnə, ekran, müasirlik",

"Azərbaycan teatr tarixi", Məryam Əlizadənin "Teatr: seyr və sehr" və s. bu kimi yazılar dərc edilmişdir. Lakin adı çəkilən bu tipli monoqrafiyalarda teatr-dekorasiya sənətinə çox az yer ayrılmış, bəzilərində isə demək olar ki, bu sahəyə heç toxunulmamışdır. Lakin sırf teatr-dekorasiya sənətini əhatə edən, monoqrafiyalar, elmi dissertasiyalar, məqalələr də vardır. Məsələn, Nurəddin Həbibovun "Sadıx Şərifzadə", "Mikayıl Abdullayev", Hüseynağa Hüseynovun "Azərbaycan tarixi dramları və onların səhnə təcəssümü (1898–1970-ci illər)", "Müasir Azərbaycan dramaturgiyası və onun səhnə təcəssümü (1960–1970-ci illər)", Mürsəl Nəcəfovun "İzzət Seyidova", Fəridə Quliyevanın "Hüseyn Cavid pyeslərinin səhnə tərtibatı (Azərbaycan Akademik Dram Teatrının tamaşaları əsasında)" və s. əsərlər vardır ki, rəssamların yaradıcılığına ayrıca toxunulur. Müasir dövrdə dramaturgiya və aktyor sənəti ilə yanaşı – şərti olaraq səhnəqrafiya adı ilə işarə olunan – yeni bədii yaradıcılıq növü də meydana gəlmişdir. "Səhnəqrafiya" termini haqda Q.K.Lukomski belə yazırdı: "Səhnəqrafiya – səhnənin bədii tərtibatı... Esxil-Sofokl dövründə meydana gəlmişdir". "Stenoqrafiya/ skenoqrafiya" (yəni səhnə-qrafiya) termini tarixin bir çox mərhələlərində müxtəlif mənalarda istifadə edilmişdir. "Səhnəqrafiya" anlayışını dəyərləndirən V.Y.Bıkovun fikrinə şərik olan V.V.Bazanov, səhnəqrafiya elminə belə bir tərif verir: "Səhnəqrafiya – teatrın bədii-texniki vasitələri haqqında elmdir. Səhnə əsərinin reallaşdırılmasında istifadə olunan bütün bədii-dekorasiya və texniki vasitələr səhnəqrafiya tərəfindən tamaşanın bədii formasını yaradan elementlər kimi baxılır" [2 s.5]. Teatrın, xüsusən Gənc Tamaşaçılar Teatrının səhnəqrafiya təbiəti sintetikdir. Səhnəqrafiya (teatr dekor sənəti) bədii yaradıcılığın bir növüdür. Mövzusu tamaşanın vizual və plastik obrazını yaratmaqla dizayn etməkdir. Səhnəqrafiya termini teatr təqdimatı üçün atmosfer və əhval-ruhiyyə yaratmağa kömək edən bütün elementləri əhatə edir: işıqlandırma, səs, dekorasiya və kostyum dizaynı. Bildiyimiz kimi, XX əsrin əvvəllərində Azərbaycanda peşəkar səhnəqrafiya təhsili olmayıb. XX əsrin əvvəllərində Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının səhnəqrafiyası haqqında da dəqiq məlumat yox idi. O dövrdə realist təsviri sənət kifayət qədər inkişaf etmədiyindən Azərbaycan teatrında rəssam əməyi demək olar ki, nəzərə çarpmırdı. Beləliklə, erkən dövrdə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında səhnənin bədii tərtibatı ilə rejissor və aktyorlar – burada fəaliyyət göstərən yerli ziyalılar, pedaqoqlar, sənət və millət fədailəri məşğul olmuşlar. Onlardan, Süleyman Ələsgərov, Hüseynağa Sadıqov, Zəfər Nemətov, Susanna Məcidova, Əliməmməd Atayev və başqalarının adlarını xüsusi olaraq qeyd etmək olar. Bununla da, Gənc Tamaşaçılar Teatrının əsası 1927-ci ildə qoyuldu. Lətif Kərimlinin müəllifi olduğu "Fırtına" tamaşası respublikamızda uşaq teatrının yaranmasının əsasını qoymuşdur. Tamaşa Ağadadaş Qurbanovun başçılığı ilə həyata keçirildi. Xalq Maarif Komissarlığının qərarına əsasən, 1928-ci il oktyabrın 5-də

Bakı Uşaq Teatrının rus bölməsi yaradıldı. 1930-cu il yanvarın 30-da "Qırmızı qalstuk əleyhinə" tamaşası ilə teatr özünün ilk pərdələrini açdı. Qriqori Kornelli tamaşanın rejissoru təyin olundu. Tamaşada əsas rolları Məmmədağa Dadaşov (Dadaş), Mina Abdullazadə (Türk qızı), Məhərrəm Haşımov (Karl), oynayıblar. Teatrın adı Xalq Maarif Komissarlığının 1936-cı il əmrinə əsasən dəyişdirilərək Gənc

Tamaşaçılar Teatrı adlandırıldı. Teatrın adının dəyişməsi onun yaradıcılıq qayəsini də dəyişdirdi. Bir-birinin ardınca yeni pyeslər tamaşaya qoyulurdu: Mirmehdi Seyidzadənin "Nərgiz", Abdulla Şaiqin "Xasay", Əbil Yusifovun "Od içində", Əyyub Abbasovun "Azad", "Sevinc" və s. Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı Cəfər Cabbarlının ("Yaşar"), Süleyman Sani Axundovun ("Tamahkar"), Mirzə Fətəli Axundovun ("Xırs quldurbasan"), Cəlil Məmmədquluzadənin ("Danabaş kəndinin məktəbi") dram əsərləri ilə yanaşı, dünya ədəbiyyatından Fridrix Şillerin ("Qaçaqlar"), Vilyam Şekspirin, Jan Batist Molyerin əsərlərini də səhnələşdirmişdir. Bu sahədə H.Mustafayev, S.Şərifzadə, Ə.Həsənov, F.Qusak kimi rəssamların da adlarını çəkmək olar. Ümumilikdə 1940-cı illərdə teatr özünün yeni yaradıcılıq pilləsinə qədəm qoydu. Böyük Vətən müharibəsi illəri teatr rəssamlarının yaradıcılığının yüksək inkişaf dövrünə düşür. 1940-cı illər səhnəqrafiya sahəsində monumental üslubun poetika göstəriciləri formalaşdı. 1941-ci ilin martında teatr özünün ən uzunömürlü tamaşası olan Nəcəf bəy Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük" komediyasını tamaşaya hazırladı. Bu tamaşada hadisələr demək olar interyerdə cərəyan edir. Tamaşanın geyim rəssamı Məhərrəm Əliyev, tərtibatçı rəssam Əsgər Həsənov, quruluşçu rejissoru isə Kərim Həsənov idi. Rəssamlar həm səhnə tərtibatında, həmçinin də aktyorların geyimlərində milli özünəməxsusluğu yaratmağa nail olmuşlar. Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının səhnəqrafiyasının inkişafında xüsusi rol oynamış rəssamlardan biri də Sadıq Şərifzadə olmuşdur. Rəssam görkəmli teatr xadimləri olan Kazım Ziya, A.A.Tuqanov, Abbas Mirzə Şərifzadə kimi rəssamlarla birlikdə işləmiş və onlardan teatr sənətinin incəliklərini öyrənmişdir. Şərifzadənin bədii tərtibatını verdiyi A.Şaiqin «Fitnə», S.Rüstəmin «Qaçaq Nəbi», «Qastello», M.Hüseynin «Cavanşir», Lope de Veqanın «Sevilya ulduzu», İ.Səfərlinin «Göz həkimi», İ.Qurbakovun «Əcəb işə düşdük», İ.İbrahimovun «Kəndçi qızı» və b. tamaşaçılarda orijinal bir fikir yaradır. Professor İlham Rəhimli Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı haqqında qeyd edir ki, "Dövrlə, şəraitlə, ideoloji problemlərlə, mənəvi-əxlaqi dəyişmələrlə bağlı olaraq teatrın estetik ifadə vasitələri də dəyişirdi. Yeni mövzular təbii ki, yeni də janrlar, forma – üslublar tələb edirdi. Bütöv şəkildə teatr həmin sınaq-proseslərdən uğurla keçməyə nail ola bilərdi.

Artıq teatrda Altay Səidov, Fuad Xəlilov, Fuad Qafarov, Tahir Tahirov, Elçin Məmmədov kimi rəssamlar psixoloji-romantik, realist-psixoloji, romantik-monumental tamaşa formalarında təcrübə toplaya bilmişdilər" [4, s.384].

Teatr tarixində ilk dəfə olaraq, 1955-ci ildə Uilyam Şekspirin yaradıcılığına müraciət edildi. Böyük dramaturqun "İki veronalı" pyesi tamaşaya qoyuldu.

Ümumilikdə 1960-1990-cı illəri teatrın tarixinin inkişaf mərhələsi kimi səciyyələndirmək olar.

## Ədəbiyyat siyahısı:

1. Kərimov İ. Azərbaycan teatrı – 125 – Bakı, 2005, 112 s.
2. Базанов В.В. Искусство театра и техника сцены. – В кн.: Наука о театре. Л., 1975.
3. Быков В.В. Проблемы театральной архитектуры и сценография. Автореферат– М., 1973.
4. Rəhimli İ. Azərbaycan teatr tarixi – Bakı: Çaşıoğlu, səh. 384, 2005.
5. Базанов В.В. Эстетические функции театральной техники. Автореферат дисс. на соиск. уч, ст. канд, искусствоведения – Л., 1971.

**Гюнель Заур**

## СЦЕНОГРАФИЯ АЗЕРБАЙДЖАНСКОГО ГОСУДАРСТВЕННОГО ТЮЗа – ХУДОЖЕСТВЕННЫЕ АСПЕКТЫ

**Резюме** В статье описывается и анализируется Азербайджанский государственный театр юного зрителя с художественных аспектов. Основной задачей статьи является исследование истории сценографических традиций Азербайджанского государственного ТЮЗа и определение становления искусства живописи, формировавшегося в театре с 1930 года по сегодняшний день. В целом это раскрытие основных проблем, связанных с сценографическим искусством Азербайджанского государственного ТЮЗа.
**Ключевые слова:** театр, сценография, цвет, свет, композиция, художник

**Gunel Zaur**

## THE SCENOGRAPHY OF THE AZERBAIJAN STATE YOUNG AUDIENCE THEATER – ARTİSTİC ASPECTS

**Summary.** In the article, the Azerbaijan State Young Audience Theater is described and analyzed artistically. The main issue in the article is to examine the history of the scenography traditions of the Azerbaijan State Youth Theater and to determine the formation of the artistic art formed by the theater from 1930 to the present day. As a whole, it is the discovery of the main problems related to the scenography art of the Azerbaijan State Youth Theater.
**Key words:** Театр, сценография, цвет, свет, композиция, художник

**Məqalənin redaksiyaya daxil olma tarixi: 06.11.2024**